# ÖMRÜNÜ TƏHSİLİN VƏ ELMİN YOLUNDA ŞAM KİMİ ƏRİDƏN ALİM

*Yaşamaq yanmaqdır yanasan gərək*
*Həyatın mənası yalnız ondadır*
*Şam əgər yanmırsa yaşamır demək*
*Onun da həyatı yanmağındadır*

**Bəxtiyar Vahabzadə, Xalq şairi**

Şadlinski Vaqif Bilas oğlu 24 yanvar 1940-cı ildə Qərbi Azərbaycanın Vedi rayonunun B.Vedi kəndində ziyalı ailəsində anadan olmuşdur. 1948-ci ildə bədnam qonşularımızın dinc əhaliyə qarşı daim törətdikləri vəhşiliklərə görə öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qalaraq ailəsi ilə birlikdə Şəmkir rayonunun Çinarlı qəsəbəsinə deportasiya olunmuşdur. 1958-ci ildə Şəmkir rayonunun Leninkənd orta məktəbini bitirmiş, 1959-1961-ci illərdə Sovet ordusu sıralarında xidmət etmişdir. Vaqif müəllimin ən böyük arzusu həkim olmaq və xalqının sağlamlığı keşiyində durmaq olmuşdur. Məhz bu istəyə görə o, sənədlərini Azərbaycan Tibb İnstitutuna verərək stomatologiya fakültəsinə daxil olmuş və 1968-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil aldığı müddətdə institutun həm ictimai, həm də tələbə elmi cəmiyyətində fəal iştirak etmişdir. Tələbələr arasında böyük nüfuz sahibi olduğuna görə o, institutun Tələbə Həmkarlar Komitəsinin sədri seçilmişdir. Bu məsul vəzifədə çalışdığı müddətdə Vaqif müəllim ona tapşırılan bütün vəzifələrin öhdəsindən layiqincə gəlmiş və onun bu fəaliyyəti dəfələrlə institut rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

1970-ci ildə V.Şadlinski Böyük Elmi Şuranın qərarı ilə İnsan anatomiyası kafedrasında baş laborant, sonradan assistent, baş müəllim və dosent vəzifələrində çalışmışdır. Vaqif müəllim dərs dediyi bütün dövrlərdə tələbələrin sevimlisinə çevrilmişdir. O, tələbələrə anatomiya elmini yüksək səviyyədə tədris etməklə yanaşı, onların hər hansı bir problemlərinin həllində yaxından iştirak etmişdir. Bu bir həqiqətdir ki, o, aldığı məvacibdən imkansız tələbələrə dəfələrlə maddi yardım göstərmiş və onların müəyyən işlə (tibb qardaşı) təmin olunmasında yaxından iştirak etmişdir.

Vaqif müəllim kafedrada çalışdığı bütün dövrlərdə hörmət və nüfuzundan istifadə edərək kafedranın maddi-texniki bazasının gücləndirilməsində öz əməyini əsirgəməmişdir. Lakin müstəqilliyimizin ilk dövrlərində bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində də müəyyən çətinliklər yaranmağa başlamış və bu, bizim kafedramızdan da yan keçməmişdi. Problemlərin aradan qaldırılması üçün güclü rəhbərə və bacarıqlı təşkilatçıya böyük ehtiyac yaranmışdı. Bütün bu keyfiyyətləri nəzərə alan kafedramızın o zamankı rəhbəri, professor R.Əsgərov institut rəhbərliyinə bir neçə dəfə müraciət edərək Vaqif müəllimi kafedra müdirliyinə namizəd kimi irəli sürmüşdü. 1995-ci ilin 23 may tarixində o, kafedranın müdiri vəzifəsinə seçilmişdir.

Zaman göstərdi ki, professor R.Əsgərov atdığı bu addımda yanılmamışdır. Bu ağır yükü çiyinlərinə götürən Vaqif müəllim öz fəaliyyətini üç əsas istiqamətdə qurmağa çalışdı: 1. Tələbələrin bilik səviyyəsinin artırılması üçün tədris prosesinin gücləndirilməsi; 2. Kafedranın maddi-texniki bazasının yaxşılaşdırılması; 3. Elmi potensialın inkişaf etdirilməsi. Tam məsuliyyətlə deyə bilərik ki, Vaqif müəllim qarşıya qoyduğu bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacardı və kafedramızın nüfuzu getdikcə artmağa başladı.

Təşkilatçılıq qabiliyyətini nəzərə alan rəhbərlik onu 1996-cı ildə Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektor vəzifəsinə təyin etmişdir. Çalışdığı 5 il ərzində o, universitetin bütün kafedralarında müsbət istiqamətdə dəyişikliklərin baş verməsinə çalışdı və buna nail oldu. Nəticədə universitetimizin ali məktəblər arasında nüfuzu artmağa başladı.

Vaqif müəllim rəhbərlik etdiyi dövr ərzində morfologiya elminin inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Onun rəhbərliyi və bilavasitə hərtərəfli köməkliyi sayəsində aktual mövzular üzərində geniş elmi-tədqiqat işləri aparıldı. Böyük fəxrlə demək olar ki, 28 nəfər tibb üzrə fəlsəfə və 8 nəfər tibb elmləri doktoru elmi adı almaq üçün dissertasiya müdafiə edərək diplomlar almışlar.

V.Şadlinski 1982-ci ildə tibb elmləri namizədi, 1999-cu ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Burada bir məsələni xüsusi qeyd etmək istərdik. Belə ki,



o, müdafiə dövründə haqsız və əsassız olaraq çox böyük çətinliklərlə qarşılaşmışdır. Lakin bütün bunlar alimin mübarizlik əzmini qıra bilməmiş və o, qarşısında olan maneələri fədakarcasına dəf etməyi bacarmışdır. Vaqif müəllimin böyüklüyü bir də ondan ibarətdir ki, bu qədər əzab-əziyyət çəkməsinə baxmayaraq elmi-tədqiqat aparan dissertantların bu cür problemlərlə qarşılaşmaması üçün əlindən gələni əsirgəməmişdir. Bu, bir daha Vaqif müəllimin böyük ürək sahibi olduğunun bariz nümunəsidir. Vaqif müəllim, eyni zamanda, Vətənini sevən və torpaqlarımızın azad olunması uğrunda canını belə qurban verməyə hazır olan bir insandır. Erməni faşistləri torpaqlarımızı işğal edəndə o, öz təşəbbüsü ilə bölgələrimizə səfər edərək doğma yurd-yuvalarından didərgin düşmüş insanlara maddi və mənəvi yardım göstərmişdir.

Vaqif müəllim 500 elmi, 30 publisistik məqalənin, 20 monoqrafiyanın, 28 tədris vəsaitinin, 32 dərsliyin və orijinal anatomik atlasın müəllifidir. V.Şadlinski Türkiyədə, İranda, İsraildə, İspaniyada, Rusiyada, Çin Xalq Respublikasında, Gürcüstanda, ABŞ-da, Almaniyada keçirilən elmi konfranslarda məruzələrlə çıxış etmişdir. Əmək fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir. 17 iyun 2000-ci il tarixdə ulu öndərimiz Heydər Əliyevin Fərmanı ilə "Əməkdar həkim" fəxri adına layiq görülmüşdür. O, 1998-ci ildə Rusiya Təbiət Elmləri Akademiyasının üzvü, 1999-cu ildə UNESKO nəzdində Kadrlar Akademiyasının anatomiya professoru seçilmişdir. Həmin Akademiyanın "Təhsildə xidmətinə görə" xüsusi qızıl medalı ilə təltif olunmuşdur. V.Şadlinski Avropa Patoloqlar Cəmiyyətinin, həmçinin Baltikyanı və Qara Dəniz Hövzəsi Ölkələrinin Anatomlar Cəmiyyətinin icra orqanının üzvüdür. 20 fevral 2004-cü ildə Rusiya Federasiyası Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir.

Vaqif Şadlinski "Neyroendokrinoloji tədqiqatlar" (Amerika Birləşmiş Ştatları), "Nevroloji elmlər" Yaponiya, "Морфология" Sankt- Peterburq (Rusiya), "Морфологические ведомости" - Moskva (Rusiya),' "Журнал Анатомия и Гистопатология" Воронеж (Rusiya), "Медицинский вестник Башкортостана? Уфа (Rusiya), "Экспериментальная и клиническая медицина" - Gürcüstan jurnallarının redaksiya şurasının üzvü seçilmişdir.

V.Şadlinski Azərbaycan Tibb Universitetinin və respublikanın ictimai həyatında fəal iştirak edir. O, tələbələr və professor-müəllim heyətinin arasında böyük hörmətə malikdir. Buna görə ona dəfələrlə universitetin rektorluğu adından təşəkkür elan edilmiş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı, həmçinin Səhiyyə İşləri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

2008-ci ildə Türk Dünyası Araştırmaları Uluslararası Elmlər Akademisinin üzvü, 2009-cu ildə BMT-nin İctimai Təltiflər Komitəsi tərəfindən I dərəcəli "Hipokrat" ordeni ilə, 2009-cu ildə Türk Dünyası Dövlətlərarası Elmlər Akademiyası Ödül Komitəsinin 6 mart tarixli qərarı ilə 33 saylı "Qızıl ulduz" medalı ilə təltif olunmuşdur.

2009-cu ildə Avropa Təbiət Elmləri Akademiyasının üzvü seçilmiş və 2010-cu ildə həmin akademiyanın Rəyasət Heyətinin qərarı ilə "Robert Kox" medalına layiq görülmüşdür. 2010-cu ildə Azərbaycan Prezdentinin Sərəncamı ilə ona "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Bütün mükafatlar və fəxri adlar gərgin əməyin bəhrəsidir. Bütün bunların arxasında 80 illik ömrün 50 illik əmək fəaliyyəti durur.

Bu yaxınlarda kafedramızın 100 illik yubileyi böyük təntənə ilə qeyd olundu.

Hörmətli Vaqif müəllim, Sizə cansağlığı və ən azı kafedramızın yaşı qədər ömür arzulayırıq.


✍ **E.Xıdırov,**
*tibb elmləri doktoru,*
*İnsan anatomiyası*
*və tibbi terminologiya*
*kafedrasının professoru*